http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 08 (1605) 30 aprel 2015 - ci il Qiymәti 40 qəpik

## Üçüncü Qlobal Bakı Forumunun rəsmi açılışı olub

## Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak edib

**Aprelin 28-də Azərbaycanın paytaxtında III Qlobal Bakı Forumu işə başlayıb.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib.

Misirin İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail SERAGELDIN Forumu açaraq dedi:

- Zati-aliləri.

Xanımlar və cənablar sabahınız xeyir olsun.

Mən böyük şərəf hissi ilə Prezident İlham Əliyevin dəvətini qəbul edib buraya gəlmişəm.

Bugünkü görüşümüzün məqsədi yeni formalaşan dünya durumunda etimadın qurulmasına aiddir. Təbii ki, İkinci Dünya müharibəsindən sonra yaranmış vəziyyət və həmin vəziyyətdən sonrakı durum necə olmalıdır? Bizim qarşımızda problemlər var, çağırışlar mövcuddur, dövlətlər, xalqlar arasında etimad məsələləri gündəliyimizdə vacib yer tutur. Buna görə də, biz bu gün gündəlikdə duran həmin məsələləri fəal müzakirə etməliyik. Biz indi özümüz üçün müzakirələr aparmalıyıq ki, hansı yeni durum olmalıdır? Henri Kissincer əslində bu sahədə görüləcək tədbirlərin çərçivəsinin hüdudsuz olduğunu qeyd etmişdir. Biz müəyyənləşdirməliyik ki, bir siyasi sistemin digər siyasi sistemə mənfi təsirinin qarşısının alınması hansı tədbirlərə əsaslanmalıdır? Bu məsələ bu gün bizi narahat edir. Buna görə də aydınlaşdırmalıyıq ki, bu gün dünya durumunda məhz hansı yeni sərhədlər, üfüqlər açılır.

Bu gün Bakıya yüksək səviyyəli nümayəndələr, təmsilçilər təşrif gətiriblər. Bu, bizim üçün böyük şərəfdir. Biz Bakı Forumumuzu artıq illik əsaslarla keçiririk. Mən indi böyük məmnuniyyətlə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə söz vermək istəyirəm.

Dövlətimizin başçısı Forumun rəsmi açılışında nitq söylədi.

**BU SAYIMIZDA**



**Rektor yay imtahan sessiyasına hazırlığın vəziyyətilə maraqlanıb** 3

**Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümü tamam oldu** 2



**ATU rəhbərliyi imtahanlara nəzarət edəcək heyət üzvləri ilə görüşüb** 5

**İmmundefisitli xəstələrin araşdırılmasına başlanılıb** 4

**FAKÜLTƏ TƏLƏBƏ ELMİ CƏMİYYƏTLƏRİNİN KONFRANSLARINDA** 6

**Saatlı və Sabirabad sakinləri pulsuz müayinə olundu** 3

## Böyük Elmi Şuranın növbəti yığıncağı keçiriləcək

**Bu gün ATU-nun inzibati binasının akt zalında Böyük Elmi Şuranın növbəti iclası keçiriləcəkdir. İclasda «ATU-da 2014/2015-ci tədris ilində yaz semestrinin imtahan sessiyasına, Buraxılış Dövlət Attestasiyana hazırlığın vəziyyəti və imtahanların mütəşəkkil keçirilməsində kollektivin vəzifələri» barədə universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyevin məruzəsi dinləniləcəkdir. Bundan başqa gündəlikdə duran müxtəlif məsələlər müzakirə olunacaq və müsabiqə məsələləri öz həllini tapacaqdır.**

**Böyük Elmi Şuranın gedişatı barədə qəzetimizin gələn sayında daha ətraflı məlumat veriləcək.**

# Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümü tamam oldu

**Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, onun fəaliyyətinə nəzər salarkən, bu dahi insanın genişmiqyaslı şəxsiyyət olması qənaətinə gəlmək olur. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün örnək olan yüksək mənəvi keyfiyyətləri haqqında çoxsaylı məqalə, kitab və əsərlər yazılıb və yazılacaqdır. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.**

1923-cü il aprelin 28-də Azərbaycanın Şahtaxtı kəndində, görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz aşan Zərifə Əliyeva taleyin hökmü ilə Azərbaycanda oftalmologiya elminin tarixində silinməz iz qoymağı bacardı.

Zərifə xanım 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi əməkdaş vəzifəsində fəaliyyətə başlayıb, 1950-ci ildə aspiranturaya daxil olub, həkimlik fəaliyyəti ilə bərabər, elmi axtarışlarını davam etdirib.

Zərifə xanım elmi-praktiki fəaliyyətinin böyük bir dövrü Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrası ilə bağlı olub. O, kafedrada dosent kimi fəaliyyətə başlayıb, doktorluq dissertasiyasını müdafiə etdikdən sonra–1976-cı ildə kafedranın professoru seçilib. O, 1983-cü ildən göz xəstəlikləri kafedrasına başçılıq edib. Onun təşkilatçılıq bacarığı bu vəzifədə özünü daha qabarıq göstərib.

Zərifə xanım tədqiqatlarını traxoma xəstəliyinin müalicəsi, xüsusən, traxomanın və onun fəsadlarının müalicəsində o dövrdə yeni antibiotikdən–təkcə geniş spektrli antibakterial deyil, həm də antixlamid təsirli sintomisindən səmərəli istifadə imkanlarının öyrənilməsi ilə bağlı məsələlərə həsr edib. O, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-dən çox elmi işin, bir kəşfin müəllifidir. "İridodiaqnostikanın əsasları" monoqrafiyası həkimlər arasında bu gün də çox populyar dərslikdir. Onun iridodiaqnostika - gözün qüzehli qişasında səciyyəvi dəyişikliklərə əsasən orqanizmdəki xəstəliklərin diaqnostikası sahəsində araşdırmaları böyük maraq doğurur. İridodiaqnostika təbabət elminin uzun müddət qəbul edilməyən yeni istiqamətidir. Zərifə Əliyeva o zaman hələ tədqiq edilməmiş bu yeni istiqamətə bir sıra məqalələr həsr edmişdir.



Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. O, elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksək ixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir.

Zərifə xanım peşəkar həkim, əvəzolunmaz pedaqoq idi. O, əldə etdiyi yeni bilik və bacarıqları böyük həvəslə həkim və elmi işçilərlə paylaşırdı. O, övladlarını sonsuz bir məhəbbətlə sevən ana, böyük ziyalı idi.

Azərbaycanda traxoma xəstəliyinin kökünü kəsməyi qarşısına məqsəd qoyan Zərifə xanım yaxşı başa düşürdü ki, bu, çox çətin və mürəkkəb problemdir. Lakin işin çətinliyinə və məsuliyyətli olmasına baxmayaraq, o, uğur qazana bildi. Moskva oftalmologiya məktəbi Zərifə xanımı "oftalmologiyanın incisi" adlandırmışdı.

Zərifə xanım 1985-ci il aprelin 15-də Moskvada vəfat edib.

Akademik Zərifə xanım Əliyeva elm, təhsil, səhiyyə, eləcə də ictimai-siyasi sahələrdəki misilsiz xidmətlərinə, həmçinin nadir xeyriyyəçilik xüsusiyyətlərinə görə, ölkəmizin tarix salnaməsində dünya şöhrətli alim, nümunəvi qayğıkeş pedaqoq, şəfaverici, şəfqətli həkim, səmimi və sədaqətli vətəndaş, eləcə də məğrur Azərbaycan qadını kimi xalqımızın qəlbində daim yaşayacaqdır.

## Akademik Zərifə Əliyevanın anadan olmasının 92-ci ildönümü ərəfəsində silsilə tədbirlər keçirilib

**Yeni Azərbaycan Partiyasının (YAP) Nəsimi rayon təşkilatı görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümünə həsr edilmiş silsilə tədbirlər keçirib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə YAP Nəsimi rayon təşkilatının qadınlar şurası üzvlərinin iştirakı ilə 5 nömrəli şəhər poliklinikasında görmə qabiliyyəti zəif olan qadınlar üçün pulsuz tibbi müayinə təşkil olunub. Aksiya zamanı zərif cinsin 43 nümayəndəsi müayinə olunub.



Sonra əlil qadınlar üçün "Millenium" restoranında banket təşkil edilib.

YAP Nəsimi rayon təşkilatının təşəbbüsü ilə B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankında qanvermə aksiyası keçirilib. Aksiyada partiyanın təqribən 300 üzvü iştirak edib.

Milli Məclisin deputatı, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı, Nəsimi Rayon İcra Hakimiyyəti başçısının müavini Gülarə Verdiyeva, habelə YAP Nəsimi rayon təşkilatının qadınlar şurasının üzvləri görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın məzmunlu həyat yolundan, pedaqoji və həkim fəaliyyətindən söz açıblar. Qeyd olunub ki, Zərifə Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələrində apardığı tədqiqatlar, habelə əldə etdiyi uğurlar və fundamental əsərləri tibb elmi tarixinin parlaq səhifələrini təşkil edir.

Tədbirdə vurğulanıb ki, Zərifə Əliyeva ziyalı qadının adını ucaldan unudulmaz şəxsiyyətlərdən biridir. Görkəmli alim müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusunun, həyatını Vətənin və xalqın tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin sədaqətli ömürgün yoldaşı və sadiq dostu olub.

Qeyd edək ki, donor qanı talassemiya və hemofiliyadan əziyyət çəkən uşaqların müalicəsində istifadə olunacaq.

## Kiyevdə akademik Zərifə Əliyevanın xatirəsinə həsr edilmiş dördcildliyin təqdimatı olub

**Kiyevdə görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsinə həsr edilmiş "İnfeksion nəzarət üzrə elmi işlər məcmuəsi" dördcildliyinin təqdimatı keçirilib.**

Təqdimat "İnfeksion nəzarətin innovasiya texnologiyaları: dezinfeksiya, sterilizasiya, nozokomial infeksiyaların monitorinqi, mikrob əleyhinə preparatlardan səmərəli istifadə, mikrob əleyhinə rezistentlik" mövzusunda beynəlxalq elmi-praktik konfrans çərçivəsində keçirilib.





Міністерство охорони здоровья України
Національна медична академія
післядипломної освіти імені П.П. Шупика

МАТЕРІАЛИ
міжнародної науково-практичної конференції
«ІННОВАЦІЙНІ ТЕХНОЛОГІЇ ІНФЕКЦІЙНОГО КОНТРОЛЮ: ДЕЗІНФЕКЦІЯ, СТЕРИЛІЗАЦІЯ, МОНІТОРИНГ НОЗОКОМІАЛЬНИХ ІНФЕКЦІЙ, РАЦІОНАЛЬНА ВИКОРИСТАННЯ АНТИМІКРОБНИХ ПРЕПАРАТІВ, АНТИМІКРОБНА РЕЗИСТЕНТНІСТЬ»



20.04.2015,
м. Київ, Україна

Dördcildliyin müəllifi həmvətənimiz, Kiyevdə akademik Zərifə Əliyeva adına Beynəlxalq Elmi-Tibbi Mərkəzin rəhbəri, P.L.Şupik adına Ukrayna Diplomdansonrakı Təhsil Milli Tibb Akademiyasının (DTMTA) mikrobiologiya və epidemiologiya kafedrasının müdiri, Ukraynanın Dünya Səhiyyə Təşkilatının (DST) Avropa Bürosundakı milli əlaqələndiricisi, tibb elmləri doktoru, professor Aydın Salmanovdur.

Dördcildliyə A.Salmanovun 2006-2014-cü illərdə apardığı əsas tədqiqatlar daxildir. Müəllif bu kitabı akademik Zərifə Əliyevanın nurlu xatirəsinə həsr edib. Bütün cildlərdə müəllifin ötən əsrin 70-ci illərinin sonu və 80-ci illərinin əvvəlində N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda (indiki Azərbaycan Tibb Universiteti) təhsil aldığı dövrdə akademik Zərifə Əliyeva haqqında xatirələri yer alıb.

Professor A.Salmanov dünya şöhrətli akademik Zərifə Əliyevanın xatirəsinə həsr edilmiş daha üç kitabın müəllifidir. Həmin kitabların təqdimatı 2014-cü ilin aprelində Kiyevdə beynəlxalq konfransda və DST-nin himayəsi, Avropa ölkələrindən milli əlaqələndiricilərin iştirakı ilə bu ilin fevralında Kopenhagendə keçirilən müşavirədə olub.

Aydın Salmanov AZƏRTAC-a müsahibəsində bildirib ki, Kiyevdə konfransın təşkilatçıları DTMTA və akademik Zərifə Əliyeva adına Beynəlxalq Elmi-Tibbi Mərkəzdir.

Azərbaycan xalqının şanlı qızı akademik Zərifə Əliyevanın doğum gününə həsr edilmiş tədbirdə DST-nin, Ukrayna Səhiyyə Nazirliyinin, Milli Tibb Elmləri Akademiyasının, Dövlət Sanitariya-Epidemiologiya Xidmətinin nümayəndələri, habelə Ukrayna, Azərbaycan, Almaniya, Danimarka, Polşa, ABŞ və İsveçdən aparıcı alimlər iştirak ediblər.

# Rektor yay imtahan sessiyasına hazırlığın vəziyyətilə maraqlanıb



**Aprelin 21-də Azərbaycan Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanov ali məktəbin rəhbər heyəti ilə görüş keçirib. Görüşün məqsədi yaxın günlərdə başlanacaq yay imtahan sessiyasından öncəki vəziyyətlə bağlı məlumat almaq, imtahanlara hazırlıq vəziyyətini müzakirə etməkdən ibarət olub. Qeyd edək ki, son illər Azərbaycan Tibb Universitetində bütün imtahanlar insan faktoru olmadan - test üsulu ilə, kompyüterlər vasitəsilə aparılır.**



Artıq ənənə halını alan görüşdə akademik Ə.Əmiraslanov qeyd edib ki, bu semestr, Azərbaycanda keçiriləcək tarixi tədbir - "Bakı 2015" Avropa Oyunlarına görə bir qədər qısaldılıb. Buna görə də Tibb Universitetində may ayının sonuna kimi imtahanlar başa çatdırılmalıdır. Ə.Əmiraslanov "Bakı 2015" Avropa Oyunlarının ölkəmiz üçün siyasi və ictimai əhəmiyyətindən danışaraq bildirib ki, bu idman yarışı bütün qitənin tarixində qalacaq bir hadisə olacaq. Rektor ATU tələbələrinin böyük qisminin Avropa Oyunlarında könüllü kimi iştirak edəcəyini də vurğulayıb və onlara uğurlar arzulayıb.

Daha sonra imtahanların keçırıldiyi Virtual Test Mərkəzinin direktoru, dosent Şahin Bayramov çıxış edərək imtahanlara texniki hazırlıqların uğurla başa çatdığını bildirib. Qeyd olunub ki, hazırda ATU-nun əczaçılıq fakültəsinin IV kurs tələbələrinin dövlət imtahanlarına start verilib.

Görüşdə iştirak edən fakültə dekanları isə tələbələrin imtahana hazırlıq səviyyəsinin yoxlanılması, dövlət attestasiyası və semestr imtahanlarına hazırlığın vəziyyəti haqqında məlumat verdilər.

Tibb Universitetinin tədris-hissə müdiri, dosent Nəsimi Qasımov Nazirlik tərəfindən fakültələr üzrə təyin edilən attestasiya komissiyaları haqqında məlumatı görüş iştirakçılarının diqqətinə çatdırdı.

ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov isə bu il Universitetdə "Məzun günü"nün may ayının 27-i saat 17:00-da keçiriləcəyini bildirdi.

Görüşdə qeyd olundu ki, Universitetdə imtahanların gedişi zamanı yarana biləcək anlaşılmazlıqları operativ həll etmək məqsədilə appelyasiya komissiyaları və qaynar xətt təşkil edilmişdir.

# ATU-nun Onkoloji klinikasında elmi konfrans keçirilib

**Aprelin 22-də Azərbaycan Tibb Universitetinin (ATU) Onkoloji klinikasında elmi konfrans keçirilib.**



Almaniyadakı Azərbaycanlı Həkimlər Cəmiyyəti (VANT) tərəfindən təşkil olunan elmi konfransda qonaq qismində Almaniyadan olan elmi tədqiqatçı, bioloq Tasilov Ford iştirak edib. O, ATU-nun keçən ilki məzunları Uğur Ağamalıyev və Valeh Rüstəmovla birgə Almaniyada mədəaltı vəzi xərçənginə aid elmi-tədqiqat işi üzərində çalışır. Uğur Ağamalıyevin sözlərinə görə, ATU məzunlarının Almaniyada 6 tədqiqatçıdan ibarət Elmi-tədqiqat qrupu var. Onlardan bir nəfəri kimyaçı, digərləri isə həkimlərdir: "Elmi-tədqiqat işimizin əsas maliyyə dəstəyi dövlət tərəfindəndir. Bu işin təşkilatçısı isə Almaniyadakı Azərbaycanlı Həkimlər Cəmiyyətidir. Hazırda 6 elmi tədqiqatçımız var. Bu il daha 3 elmi tədqiqatçının bizə qoşulacağı gözlənilir. Gələcəkdə bu işi daha da genişləndirməyi düşünürük. İstər Azərbaycan Tibb Universitetindən olsun, istərsə də digər xəstəxanalardan belə bir elmi korporasiya yaratmaq planımız var".

U.Ağamalıyev elmi-tədqiqatlarının əsasən xərçəng xəstəliyi istiqamətində aparıldığını bildirib.

# Saatlı və Sabirabad sakinləri pulsuz müayinə olundu

**Milli Məclisin 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən seçilmiş deputatı, Azərbaycan Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanovun təşəbbüsü ilə Saatlı və Sabirabad rayonlarında pulsuz tibbi müayinə aksiyası keçirilib. Aksiya çərçivəsində bölgənin bir neçə kənd sakinləri ezam olunmuş həkim briqadası tərəfindən pulsuz müayinədən keçiriliblər.**





Həkim briqadası yola düşməzdən əvvəl akademik Əhliman Əmiraslanov onlarla görüşüb, bu cür aksiyada könüllü iştirak etdiklərinə görə təşəkkürünü bildirib. Millət vəkili qeyd edib ki, belə müayinələr bir sıra xəstəliklərin vaxtında aşkarlanmasına, pa-



tologiyaların qarşısının alınmasına kömək edir: "Bu, çox böyük bir işdir. Rayonlarımızda hər cür avadanlıqlarla təchiz olunmuş klinikalar, xəstəxanalar fəaliyyət göstərir. Lakin bəzi sahələrdə mütəxəssislərə ehtiyac duyulur. Bu baxımdan, kampaniyanın böyük əhəmiyyəti var".

İki gün ərzində Saatlının bir neçə kəndində müayinə aparacaq həkim briqadasına 230 nəfərdən çox müraciət olub. Onlar əsasən göz ağrılarından, ürək nahiyəsində olan narahatlıqlardan və s. şikayət ediblər. Müayinələrdən sonra səhhətində problem olan bəzi sakinlərə həkim-mütəxəssislər tərəfindən məsləhətlər verilmiş və müvafiq müalicə təyin olunmuş, bəziləri isə stasonar şəkildə müalicə olunmaq üçün Bakıya göndərilmişdir.

Saatlıda əhalinin pulsuz müayinəsi kampaniyasında müxtəlif ixtisaslı həkim-mütəxəssislər - Əmənullayev Nuran (nevropatoloq), Səmayə Əliyeva (endokrinoloq), Vüsal Kərimov (pediatr), Mehriban Səmədova (USM həkimi), Ağayev Elçin (cərrah), Hafiz Qəhrəmanov (oftalmoloq), Nüşabə Əlişova (ginekoloq), Afil Nuriyev (daxili xəstəliklər), Həqiqət Vəliyeva (onkoloq), Şirazi İbrahimov (LOR - burun-qulaq-boğaz xəstəlikləri), Emil Əliyev (dəri-zöhrəvi xəstəlikləri) iştirak ediblər.

Sabirabadda isə bu təşəbbüs üçün – tibb elmləri doktoru Musayev Xaləddin (cərrah), tibb üzrə fəlsəfə doktoru Hüseynova Venera (ginekoloq), dosent Nağdəli Zamanov (terapevt), tibb üzrə fəlsəfə doktoru Zülfiyev Qabil (oftalmoloq), tibb üzrə fəlsəfə doktoru



Cəfərova İnarə (onkoloq), tibb üzrə fəlsəfə doktoru Şərifov Tahir (endokrinoloq), tibb üzrə fəlsəfə doktoru Əhmədov Gündüz (pediatr), Məmmədov Yaqub (USM), tibb üzrə fəlsəfə doktoru Qasımov Rauf (cərrah) və tibb üzrə fəlsəfə doktoru Cavadzadə Vüqar (infeksionist) iştirak etdilər.

Rayonda tibbi müayinəyə gələn vətəndaşlar belə aksiyaların mütəmadi olaraq, hər il təşkil olunmasına görə deputat Əhliman Əmiraslanova və ezam olunmuş həkim briqadasına minnətdar olduqlarını bildirdilər. Müayinə zamanı müxtəlif ixtisaslı həkim-mütəxəssislər aşkar olunan patologiyalara müvafiq olaraq xəstələrə tibbi təyinat və məsləhətlər verdilər.

Onu da qeyd edək ki, mayın 1 və 2-də pulsuz müayinə aksiyasının Kürdəmir rayonunda da keçirilməsi nəzərdə tutulub.

# Tibb Universitetində tələbələr üçün ödənişsiz xarici dil kursları təşkil edilib

**Müasir dövrdə gənclərin xarici dil, xüsusilə də ingilis dilini bilməsi çox önəmlidir.**




Dil bacarıqları tələbələrin beynəlxalq təcrübəni daha yaxşı mənimsəməsinə, əlaqələri genişləndirməsinə, konkret fənn ilə bağlı daha çox bilik əldə etməyə imkan verir. Tibb elminin daim inkişaf edən bir sahə olduğunu nəzərə alaraq ingilis dili biliklərinin ATU tələbələri üçün daha çox əhəmiyyət kəsb etdiyini deyə bilərik. Bu məsələdə tələbələrə yardım etmək məqsədilə Azərbaycan Tibb Universitetinin (ATU) rektoru, akademik Ə.Əmiraslanovun dəstəyi nəticəsində Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində tələbələr üçün pulsuz danışıq kursları (Conversation Club) təşkil edilib. Bu haqda ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Elşad Novruzov məlumat verib.

Onun sözlərinə görə, bu kurslarda ingilis dilində başlanğıc (Beginner) və orta səviyyələr (Intermediate) üçün xüsusi proqramlaşdırılmış dərslər keçilir.

Kursların tamamilə ödənişsiz olduğunu xüsusi qeyd etmək lazımdır. Bu, tələbələrin xarici dillərlə daha intensiv məşğul olmasına imkan yaradacaq.

Qeyd edək ki, ingilis dilində danışıq klubunun yaradılması layihəsi ATU-nun II müalicə profilaktika fakültəsinin 3-cü kurs tələbəsi Sərxan Həsənlinin başçılığı ilə icra olunur. Dərslər həftədə 2 dəfə - şənbə və bazar günləri ATU-nun tədris binasında (fizika-kimya korpusu) keçirilir.

Kursda iştirak etmək üçün facebookda "Medicalconversationamu" qrupuna qatılmaq lazımdır.

**ATU-nun mətbuat xidməti**

**Faşizm üzərində qələbənin 70 illiyi**

**◆ 22 iyun 1941-ci il faşist Almaniyasının xaincəsinə hücumu nəticəsində müharibənin qəflətən başlanması SSRİ xalqlarının dinc və yaradıcı əməyini pozdu. Ölkə tarixində ən ağır və uzun sürən müharibələrdən biri olan bu müharibədə xalq bəşər tarixində misli görünməyən qəhrəmanlıq göstərdi. Müharibənin ilk günlərindən Azərbaycanın oğul və qızları cəbhələrdə, partizan dəstələrində vuruşur, arxada fədakarcasına çalışırdılar. Bu illəri ulu öndərimiz Heydər Əliyev belə xarakterizə edirdi: "Bakıda bombalar partlamamışdır, ancaq o cəbhə şəhəri və qüdrətli silah anbarı idi".**

# Böyük Vətən müharibəsi illərində səhiyyənin və tibb elminin inkişafında Azərbaycan Tibb Universitetinin rolu

Müharibə Azərbaycan səhiyyəsi və tibb elmi qarşısında məsul vəzifələr qoymuşdu. Mühüm problemlərdən biri cəbhə və arxanın ehtiyaclarını ödəmək üçün səhiyyə orqanlarının, müəssisələrinin, həmçinin ali və orta tibb məktəblərinin, elmi-tədqiqat müəssisələrinin fəaliyyətini yenidən qurmaq idi. Müharibənin əvvəlindən başlayaraq Azərbaycan Səhiyyə Komissarlığı ilə birgə Azərbaycan Tibb Universiteti çox mühüm təşkilati tədbirlər görmüşdür.

Azərbaycan Tibb Universitetinin professor-müəllim kollektivi, yardımçı heyəti və tələbələri tərəfindən bu müharibə şəraitində mürəkkəb və çoxcəhətli məsələlər müvəffəqiyyətlə həll edilmişdir. Müharibənin başlanğıcına qədər institut 3813 həkim və provizor hazırlamışdı. Onların çoxu ordu sıralarında xidmət etmiş və ya respublika Səhiyyə Komissarlığının hospitallarında çalışmışlar. Müharibə başlayan kimi 680 V kurs tələbəsi dövlət imtahanını verməmiş cəbhəyə yola salınmışdı. Universitetin professor-müəllim heyəti və əməkdaşlarının çoxu döyüşən orduya göndərilmişdi. Onlardan bəziləri cəbhə ordu və korpuslarında, həmçinin hospitallarda baş mütəxəssis kimi işləmişdir (sonralar professorlar N.Bünyatov, X.Hacıyev, Q.Səlimxanov, H.İsazadə, dosentlərdən C.Axundov, M.Qarayev və b). O cümlədən 45-ci Ordunun baş cərrahı A.Tahirov (sonralar institutun professoru), Leninqradın hospital bazalarından birində baş cərrah kimi çalışan tibb xidmətinin polkovniki B.Mahmudbəyov (eyni zamanda o, Leniqrad Hərbi-Tibb Akademiyasının professoru idi), 47-ci Ordunun tibbi-sanitar batalyonunun tibb rotasının komandiri, cərrahi əməliyyat apardığı zaman mərmi qəlpəsindən həlak olmuş M.Qəmbərov (Bakıda 5 saylı uşaq poliklinikası onun adını daşıyır) və bir çox başqalarını misal göstərmək olar. İnstitutun yetişdirdiyi həkimlərdən (A.Rüstəmbəyova, Abdullayev, İbrahimov və başqaları) partizan dəstə və birləşmələrinin tibb hissələrində işləmişlər.

Azərbaycan müharibə illərində ən böyük arxa hospitalı bazalarından birinə çevrilmişdi. 1942-ci ildə respublikada hospitalların sayı 41-ə, çarpayıların sayı isə 31400 çatmışdı. Yaralı və xəstə döyüşçülərin müalicəsinin ən yaxşı nəticəsini təmin etmək məqsədi ilə 1941-ci ilin iyulunda ATU-nun cərrahlıq kafedrasının müdiri, professor M.Topçubaşov Xalq Səhiyyə Komissarlığı təhliyə hospitalları idarəsinin baş cərrahı, professor M.Mirqasımov isə Azərbaycan Həmkarlar İttifaqı Şurası təhliyə hospitallarının baş cərrahı təyin olundular.

Təhliyə hospitallarına ağır vəziyyətli və uzun müddət ixtisaslı müalicəyə ehtiyacı olan xəstələr daxil olurdu. Tibb işçilərinin, o cümlədən yüksək ixtisaslı mütəxəssislərin çoxunun döyüşən orduya getdiklərinə görə, yüksək ixtisaslı mütəxəssislərin çatışmaması böyük çərinliklər yaratmışdı.

İnstitutun yüksək ixtisaslı əməkdaşları məsləhətlər verməklə yanaşı, cərrahi əməliyyatlar aparırdılar, praktik həkimlərin ixtisasının və hospitalların işinin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi sahəsindədə xeyli iş görmüşdülər. Bunlar 1941-1945-ci illərdə yaralıların 72, xəstələrin 90%-dən çoxunun yenidən ordu sıralarına qayıtmasını təmin etdi.

İnstitutun alimləri hərbi-tibb problemlərinə həsr olunmuş hospital, hospitallararası, şəhər və respublika əhəmiyyətli elmi-praktik konfranslar keçirirdilər.

Tarix göstərir ki, müharibələr zamanı odlu silahlarla zədələnmələrə nisbətən kəskin infeksion xəstəliklər nəticəsində sanitariya itkiləri daha çox olmuşdu. Tibb Universitetinin əməkdaşları respublikanın digər tibb işçiləri ilə birgə epidemioloji salamatlığın təmin edilməsi sahəsində çox böyük işlər görmüşlər. Onlar epidemik və parazitar xəstəliklərlə mübarizədə professor Şirokoqovun (patoloji anatomiya kafedrası) hələ I Dünya müharibəsi zamanı Qafqaz cəbhəsində topladığı böyük təcrübədən, eləcə də respublikada epidemiologiya, mikrobiologiya, gigiyena və digər sahələrdə aparılmış elmi-tədqiqatların nəticələrindən istifadə etmişlər. Məsələn, 1942-ci ildə C.Hüseynov Sibir xorasının ədəbiyyatda təsvir olunmamış əzələ formasını aşkara çıxarmışdı ki, bu da, o xəstəliyin yayılmasının qarşısını almağa imkan vermişdi.

1942-ci il iyulun 11-də SSR-i Xalq Səhiyyə Komissarlığının kollegiyasında Azərbaycan Səhiyyə Komissarlığının işi müzakirə olundu və SSR-i Xalq komissarı Q.Miterev qeyd etdi ki, ilk dəfədir ki, müharibə dövründə işin və şəbəkənin nəinki zəifləmədiyi və azalmadığı, əksinə, işin keyfiyyətinin daha da yüksəldiyinin və epidemioloji mənzərənin yaxşı olmasının şahidi olduq.

Azərbaycan Tibb Universitetinin tələbələri də təhliyə hospitallarına böyük yardım göstərirdilər. I və II kurs tələbələri bu hospitallarda sanitar, III və IV kurs tələbələri-tibb bacısı və qardaşları, V kurs tələbələri isə subordinator kimi çalışırdılar. 1944-cü ildə bircə N.A.Semaşko adına klinik xəstəxanada ştat üzrə 300-dən çox III, IV, V kursların tələbələri işləyirdi.

Tibb Universitetinin alimləri tərəfindən aparılan elmi-tədqiqat işlərinin çoxusu müdafiə əhəmiyyətli idi. Onların nəticəsi təhliyə hospitallarında geniş tətbiq edilirdi. Məsələn, naftalandan nəinki irinli yaraların, travmatik osteomiyelitlərin, yanıqların, donmaların müalicəzi zamanı, hətta Qafqaz uğrunda gedən vuruşmalar dövründə təzə travmaların müalicəsi zamanı da istifadə olunurdu. Mərkəzi və periferik sinir sisteminin travmatik zədələnmələrində (professor M.Topçubaşov), döş qəfəsinin zədələnmələrində (professor F.Əfəndiyev) yeni cərrahi və digər metodlar tətbiq edilirdi. Nəzəri kafedralar da qıraqda qalmamışlar. Çətin tapılan ürək dərmanlarının və qanaxmanın qarşısını alan vasitələri əvəz edə bilən bəzi yabanı bitkilər toplanır və öyrənilir (dosent H.Allahverdibəyov və b.), bir çox dərmanların istehsalı təşkil olunurdu. Hospitallarda biokimyəvi analizləri biokimya kafedrasının əməkdaşları həyata keçirirdilər. Azərbaycanda yerli xammaldan alınmış dərman preparatları, dezinfeksiya vasitələri və konservləşdirilmiş qan həm respublikanın özündə, həm də digər respublikalara istifadə üçün göndərilirdi. Professor F.Əfəndiyev tərəfindən təklif olunmuş qanın konservləşdirilməsi üsulu, onun 35-40 gün müddətində saxlanmasına imkan verirdi. Nevrologiya və psixiatriya kafedraları (professorlar M.Ammosov və M.Məlikov) tərəfindən nevroloji və psixiatrik ekspertizanın əhəmiyyətli məsələləri işlənib, istifadə üçün irəli sürülmüşdü.

1942/1943-cü tədris ilində instituta 36 müharibə əlili qəbul edilmişdi. Ona baxmayaraq ki, institutun bazası 600 tələbə üçün nəzərdə tutulmuşdu, müharibənin tələbatını nəzərə alaraq, hər il 1000 və ondan da çox tələbə qəbul edilirdi.

1943-cü ildə Tibb Universiteti yüksək göstəricilərinə görə SSRİ Səhiyyə komissarlığının keçici Qırmızı Bayrağı ilə, əməkdaşları isə orden və medallarla təltif olunmuşdular.

Müharibə illərində Tibb Universitetində 52 dissertasiya müdafiə edilmişdir ki, bu da cəbhəyə getmiş elmi-pedaqoji kadrları əvəz etmək üçün çox vacib idi.

Beləliklə, Böyük Vətən müharibəsinin ağır illərində Azərbaycan səhiyyəsinin və elminin qarşısında qoyulan vəzifələrin şərəflə yerinə yetirilməsində Azərbaycan Tibb universitetinin rolu çox böyükdür.

**S.MEHDİYEVA,**
*İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının baş müəllimi, t.ü.f.d*

# İmmundefisitli xəstələrin araşdırılmasına başlanılıb

**Son illərdə bütün dünyada immundefisitli xəstələrin sayı artır. Bu xəstələrin araşdırılması ilə bağlı 30 ölkədə 76 xüsusi immundefisitli xəstələrin mərkəzi yaradılmış və xüsusi proqramlar hazırlanmışdır.**



Bu xəstəliklərin yaranma səbəbləri müxtəlifdir. Genetik amillər, ananın hamiləlik müddətində keçirdiyi infeksion xəstəliklər, bəzi mikrob və virusların titrinin yüksək olması, yaxın qohum nikahlar və s. bu patologiyanın yaranmasına səbəb olur. Azərbaycan populyasiyasında yaxın qohum nikahların daha çox yayıldığını nəzərə alaraq ATU-nun İmmunologiya kursu tərəfindən 2011-ci ildən etibarən bu xəstəliklərin araşdırılmasına başlanılmışdır. Nəticə etibarilə immun patologiyaya şübhəli 300 xəstə yoxlanılmış və onlardan 64-nə Birincili (anadangəlmə) İmmun Çatışmazlıq (BİÇ) diaqnozu qoyularaq qeydiyyata alınmışdır. Qeydiyyata alınan xəstələrə Amerika BİÇ mərkəzi və European Society for İmmunodeficiency (ESİD) proqramlarına əsasən müayinə və müalicə aparılır. Daimi olaraq dünyada olan belə mərkəzlərlə əlaqələr yaradılır, keçirilən bir sıra elmi konfranslara bu xəstələrin vəziyyətini əks etdirən materiallar təqdim edilir və kursun əməkdaşları bu işdə fəal iştirak edərək əllərindən gələn köməkliyi göstərirlər. 2014-cü ildən başlayaraq hər il kursun rəhbəri, professor Gülnarə xanım Nəsrullayevanın təşəbbüsü ilə aprel ayının 23-də bu xəstələr üçün BİÇ həftəsi adı altında tədbir təşkil edilir. Əsas məqsədimiz BİÇ olan uşaqların



valideynlərini maarifləndirmək, xəstələri bir-biri ilə görüşdürüb onlarda ruh yüksəkliyi yaradaraq yaşamaq hissini artırmaq, müasir müalicə üsullarını ardıcıl olaraq vaxtında almalarını başa salmaqdır.

Aprelin 23-də Azərbaycan Tibb Universitetinində Ümumdünya İlkin İmmun Çatışmazlığı günü qeyd olundu. İkinci ildir ki, keçirilən bu tədbir haqqında hələ iki ay öncə Facebook-da, xüsusi bülletenlərdə və posterlər vasitəsi ilə məlumat yayılmışdır. ATU-nun bir sıra həkim-pediatrları, 2-ci uşaq xəstəlikləri kafedrasının müdiri, ə.e.x, professor Amalya xanım Əyyubova, İmmunologiya kursunun müdiri, professor Gülnarə xanım Nəsrullayeva və t.e.d. Nailə xanım Sultanova tədbirdə iştirak etmişlər. Bu xəstəliyə duçar olan uşaq və yaşlı pasiyentlərlə birbaşa diskussiya aparılmış, sonra ötən ilin tədbirindən çəkilmiş videofilm təqdim edilmişdir. Daha sonra yığıncaq iştirakçıları LANDMARK otelində xeyriyyə məqsədi ilə verilən nahar yeməyinə dəvət olunmuşlar. Burada klounların əyləncəli proqramı, yarışmalar, musiqi və rəqs nömrələri təqdim olunmuş, xəstələrə müxtəlif hədiyyələr verilmişdir. Tədbir zamanı iştirakçılar tərəfindən toplanmış vəsait bir xəstənin bank hesabına köçürülmüşür.

İki saat davam edən görüş rəngbərəng şarların havaya uçurulması və fotoşəkillərin çəkilməsi ilə sona çatmışdır.

Azərbaycanda bu ilin Ümumdünya İlkin İmmun Çatışmazlıq günü ABŞ-ın Jeffrey Modell Foundation və İspaniyanın Azərbaycandakı səfirliyi tərəfindən dəstəklənmiş, İctimai Televiziyada işıqlandırılmışdır.

**Nailə QULIYEVA,**
**Vəfa MƏMMƏDOVA,**
*kursun əməkdaşları*

## Milli Oftalmologiya Mərkəzinin mütəxəssisləri Afrika ölkələrində 300-dək göz əməliyyatı aparıblar

**Akademik Zərifə Əliyevanın adını daşıyan Milli Oftalmologiya Mərkəzinin (MOM) mütəxəssisləri son illərdə Afrika ölkələrində 300-dək göz əməliyyatı aparıblar. Zərifə xanımın təşəbbüsü ilə tikilən bu mərkəzə indi müalicə almaq üçün xarici ölkələrdən də gəlirlər.**



Bu sözləri mərkəzin direktoru Elmar Qasımov akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümünə həsr edilmiş elmi konfransda çıxışı zamanı deyib.

Direktor indiyədək MOM-un səyyar klinikası tərəfindən 3 mindən artıq pasiyentin müayinə edildiyini də bildirib.

## Aprelin 25-i Beynəlxalq DNT Günüdür

Aprelin 25-də dünyanın bir çox ölkələrində qeyri-adi bir bayramı – Beynəlxalq DNT Gününü qeyd edirlər. Bu tarixin seçilməsi 1953-cü il aprelin 25-də “Nature” jurnalında Ceyms Uotson, Frensis Krikin, Moris Uilkins, Rozalind Franklin və onların həmkarlarının molekulun DNT strukturunun tədqiqinin nəticələri barədə elmi məqalələrini dərc etmələri ilə bağlıdır. Həmin hadisədən 50 il sonra – 2003-cü il aprelin 25-də “İnsan genomu” layihəsinin tezliklə başa çatacağı bildirilib. Genom üzərində araşdırma davam etsə də, layihə ilə bağlı əsas iş sona çatıb. İnsan genlərinin quruluşunun müəyyən edilməsi səhiyyənin inkişafında mühüm amildir.

ABŞ-ın Milli İnsan Genomu Araşdırma İnstitutu (Merilend ştatının Betesda şəhərinin Milli Səhiyyə İnstitutunun bölməsi) 2003-cü ildən etibarən Beynəlxalq DNT Gününə həsr edilən tədbirlərin təşkili ilə məşğul olur.

## Aprelin 24 Argentinanın Quilmes Milli Universitetinin rektoru Azərbaycan Tibb Universitetində olub

**Görüşdə Argentinadan gələn qonaqlara Azərbaycan Tibb Universiteti haqqında ətraflı məlumat verilib. Qeyd edilib ki, ATU ölkəmizdə tibb təhsili verən yeganə ali məktəbdir. Hazırda universitetdə 7000-dən çox tələbə, rezident və 1000-dən çox xarici ölkə vətəndaşları olan tələbələr təhsil alır.**

Tibb Universitetinin professor-müəllim heyəti haqqında məlumatda qeyd edildi ki,hazırda bu ali təhsil ocağında 160-dan çox professor, 320 dosent, 800-ə yaxın elmlər namizədi və ümumilikdə 1300 nəfər akademik personal çalışır.

Öz növbəsində qonaqlar da Quilmes Milli Universiteti haqqında ətraflı məlumatı görüş iştirakçılarının diqqətinə çatdırdılar. Görüş zamanı Quilmes Milli Universitetinin rektoru Mario Lozano həmçinin son illər Argentina ilə Qafqaz regionu, xüsusilə Azərbaycan,Gürcüstan və Türkiyə ilə münasibətlərin dərinləşməsinin müşahidə olunduğunu bildirdi. Bu baxımdan, hər üç ölkə ali təhsil müəssisələri arasında da əməkdaşlığın genişlənməsinə ehtiyac olduğunu vurğuladı.

Görüşdən sonra Argentina nümayəndə heyəti ATU-nun tədris binaları, klinikaları ilə tanış oldular. Onlar Tibb Universitetində tələbə-rezidentlər, həmçinin əhalinin müayinə və müalicəsi üçün yaradılan şəraitdən, modern texnoloji avadanlıqla təchiz olunmuş klinikalardakı durumdan son dərəcə məmnun qaldıqlarını bildirdilər.

Tibb Universitetində olan görüşdə rektor Mario Lozano ilə birgə Argentinanın beynəlxalq məsələlər üzrə müşaviri Marselo Tobin, Argentinanın Azərbaycandakı səfirinin müavini Gabriel Jorquera, Argentinanın Azərbaycandakı təhsil müəssisələri üzrə agenti Tutu Yunusova da iştirak edib.

# ATU rəhbərliyi imtahanlara nəzarət edəcək heyət üzvləri ilə görüşüb

**Azərbaycan Tibb Universitetində ali məktəb rəhbərliyinin imtahanlara nəzarət edəcək heyət üzvləri ilə görüşü keçirildi. Tədbirdə iştirak edən tədris işləri üzrə prorektor, professor Sabir Əliyev bu görüşlərin ənənə halını aldığını, mütəmadi olaraq keçirildiyini qeyd etdi.**



S.Əliyev imtahana hazırlıq işlərinin gedişatı ilə maraqlandı. O, gələcəkdə hansısa problemlərin yaranmaması naminə imtahan nəzarətçilərinin seçiminə daha diqqətlə yanaşmağı tövsiyə etdi.



Daha sonra imtahana nəzarət qrupunun rəhbəri Kamandar müəllim yaz imtahan sessiyası haqqında ətraflı məlumatı qrup üzvlərinin diqqətinə çatdırdı. Bu zaman imtahan cədvəlləri, nəzarətçilərin bölüşdürülməsi haqqında informasiya səsləndirildi.

Virtual Test Mərkəzinin (VTM) direktoru Şahin Bayramov imtahanlar zamanı şəffaflığın təmin olunması baxımından bəzi tədbirlərin görülməsinin zəruriliyindən danışdı. O, tələbələrin imtahan zalına buraxılarkən telefonlarının olubolmamasına xüsusi diqqət yetirilməsi, zalda səssizliyə riayət edilməsinin vacibliyindən söz açdı.

Qeyd edək ki, ATU-nun rəhbərliyi ilə keçirilən görüşdə imtahanlara nəzarət qrupunun 151 üzvü də iştirak edirdi. Tədbirdə imtahanların təşkili, qaydaları, məzunların hazırlıq dərəcəsinin təhsil standartının tələblərinə uyğunluğunun kompleks şəkildə qiymətləndirilməsinə dair müzakirələr aparıldı.

# Tibb Universitetinin tələbələri «First klub» açdılar

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin Tələbə Gənclər Təşkilatının nəzdində «First klub»un açılışı olub. Tədbirdə təşkilatın sədri Tural Əzizov ATU-nun Tələbə Gənclər Təşkilatının fəaliyyəti haqqında ətraflı məlumat verib.**



Daha sonra “First klub”un sədri Məhəmməd Məmmədov klubun yaradılmasının məqsədi, nəzərdə tutulan işlər, gələcək planları barədə çıxış edib. Tələbə Gənclər Təşkilatının nəzdindəki “Sağlam Həyat” mərkəzinin rəhbəri Türkan Nəsibova da mövzunu davam etdirərək yeni klubun tələbələrə verəcəyi imkanlardan söz açıb. Qeyd olunub ki, Azərbaycan Tibb Universitetinin Tələbə Gənclər Təşkilatı nəzdində fəaliyyətə başlamış “First klub” tələbələrin universitetin ictimai həyatında fəallığını artırmaq, asudə vaxtlarının səmərəli təşkili, habelə qruplar və fakültələr arasında sıx əlaqələr yaratmaq məqsədi ilə təsis edilmişdir.

Klubun başlıca yaradılma səbəbi Azərbaycan Tibb Universiteti tələbələrinin gərgin dərs günündən sonra tələbəlik həyatını maraqlı keçirməsi üçün bir sıra seminarlar, təlimlər, festivallar, müxtəlif görkəmli şəxsiyyətlərlə görüşlər təşkil etməkdir. Bir sözlə, tələbələrin asudə vaxtlarını və tələbəlik illərinin səmərəli, maraqlı keçirməsinə yardımçı olmaqdır. Eyni zamanda klubun digər fəaliyyət istiqaməti ATU-nun tələbələri arasından təlim deyə biləcək tələbələrin yetişdirilməsidir.

Rəsmi hissədən sonra tələbələr üçün ilk təlimə start verilib. ATU-nun V kurs tələbəsi Yusif Seyidov “İlk addım” mövzusunda fikirlərini tədbir iştirakçıları ilə bölüşüb. Qeyd olunub ki, gənclər müstəqil həyata qədəm qoyduqda ilk addımı atmazdan öncə yaxşı düşünməlidir. Çünki hər bir qərar insan həyatını kökündən dəyişdirəcək dərəcədə təsirli ola bilər. Sonra psixoloq İzzət Rəhimova “Gənclərdə liderlik xüsusiyyətinin formalaşdırılması” mövzusunda çıxış edib. O, karyera qurulmasında insanın şəxsi keyfiyyətləri və bacarıqlarının xüsusi rol oynadığını vurğulayıb. Məhz buna görə də, daim öz bilik və bacarıqlarını inkişaf etdirməyə ehtiyac olduğunu bildirib. Psixoloq qeyd edib ki, gənclər güclü idarəetmə qabiliyyətinə, uzaqgörənlik, yaradıcılıq, motivasiya və s. kimi xüsusiyyətləri inkişaf etdirməyə həvəsli olmalıdırlar. Tədbirin yekununda tələbələri maraqlandıran suallara ekspertlər tərəfindən cavab verilib.

**ATU-nun mətbuat xidməti**

# FAKÜLTƏ TƏLƏBƏ ELMİ CƏMİYYƏTLƏRİNİN KONFRANSLARINDA

**◆ Pediatriya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin 41-ci elmi konfransı olub. Pediatriya bölməsi üzrə konfrans ATU-nin Tədris Terapevtik Klinikasında, nəzəri təbabət bölməsi üzrə konfrans isə patoloji fiziologiya kafedrasında keçirilib.**





Pediatriya bölməsi üzrə konfransı fakültənin dekanı, dosent Nəriman Nağıyev açaraq Tələbə Elmi Cəmiyyətinin tələbələrin karyeranızda mühüm rol oynadığını deyib: "Siz hələ gənc ikən tədrislə yanaşı, elmi tədqiqat işlərinə maraq göstərir, Tələbə Elmi Cəmiyyətinin işində aktiv iştirak edirsiniz. Müəllimlərinizin, müasir alimlərin böyük əksəriyyətinin keçdiyi bu yolu gələcəkdə uğurla davam etdirəcəyinizə inanırıq".





Universitetimizdə 1932-ci ildən fəaliyyət göstərən Tələbə Elmi Cəmiyyətinin işinə hörmətli rektorumuz akademik Əhliman Əmiraslanovun xüsusi diqqət ayırdığını bildirən fakültə dekanı tələbələrimizin uzun illərdir ki, beynəlxalq konfranslara qatıldığını, eyni zamanda rektorun qayğısı sayəsində universitetimizin beynəlxalq konfranslara da ev sahibliyi etdiyini vurğulayıb. Qeyd edib ki, keçən il ilk dəfə olaraq universitetimizdə beynəlxalq tələbə elmi cəmiyyətinin konfransı keçirilib və bu il də keçirilməsi nəzərdə tutulub.

O, çıxışında uzun illərdir ki, ATU-da Tələbə Elmi Cəmiyyətinə rəhbərlik edən professor Amalya xanım Əyyubovanın bu sahədəki xidmətlərini də yüksək qiymətləndirib və konfransın işinə uğurlar arzulayıb.

Sonra konfransın işini fakültə üzrə Tələbə Elmi Cəmiyyətinin sədri, VI kurs tələbəsi Könül Novruzova davam etdirərək pediatriya bölməsi üzrə 9 məruzənin dinləniləcəyini, həmin məruzələrdən 3-nün diploma, qalanlarının sertifikatla təltif olunacağını bildirib.

Münsiflər heyətinin rəyinə əsasən Fatma Həsənova, Adilə Nəbiyeva, Aytən Hacıyeva, Nərmin Zeynalova, Nailə Musayeva və Rza Xavər dolğun çıxışları ilə fərqlənərək diplomla təltif olunublar.

Nəzəri təbabət bölməsinin konfransını isə Fakültə Tələbə Elmi Cəmiyyətinin rəhbəri, professor Məmməd Əliyev açıb.

Nəzəri təbabətin aktual problemlərinə aid maraqlı məruzələr dinlənilib. Məruzəçi tələbələrdən Aygül Məmmədova, Turanə Məmmədova, Fərrux Sadıxov, Şəlalə Osmanlı, Səmra Bağırova, Nərmin İbadlı, Gözəl Mirzəyeva, Sevinc Əzimova və Esmira Paşayeva diploma layiq görülüblər.

**A.KAMRANOĞLU**

**◆ Aprelin 16-da "Tibbi biologiya və genetika" kafedrasında I müalicə-profilaktika fakültəsinin (I MPF-nin) nəzəri təbabət bölməsi üzrə Tələbə Elmi Cəmiyyətinin (TEC) konfransı keçirilib.**



Fakültənin dekanı, professor Abuzər Qazıyev tədbiri açıq elan edərək, bu konfransın keçirilməsində əsas məqsədin gələcək həkimlərdə elmi tədqiqatlara marağın artırılması olduğunu bildirdi: "Məhz bu konfranslar zamanı bacarıqlı tələbələr üçün şərait yaradılır və onlar bu şəraitdən səmərəli istifadə edərək öz bacarıq və şərişələrini nümayiş etdirirlər. Nəzərə alsaq ki, günümüzün bir çox alimləri elm sahəsində ilk addımlarını TEC-də atmışdır, onda böyük inamla demək olar ki, bu gün TEC-də iştirakçı qismində səriştə nümayiş etdirən tələbələr gələcəyin uzaqgörən alimləri siyahısına öz adlarını yazdıra biləcəklər. Hələlik isə, bu ğün onlar öz uğurlu çıxışlarına ğörə diplom və sertifikatlarla təltif olunacaqlar." Çıxışının sonunda dekan A.Qazıyev konfransın işinə uğurlar arzuladı və söz məruzəçi tələbələrə verildi.

*Nəzəri təbabət bölməsi üzrə I MPF-nin I kurs, $45^b$ qrup tələbəsi Rəna Mikayılzadə və II MPF-nin I kurs, $256^a$ qrup tələbəsi Mədinə Mursaqulova I, I MPF-nin I kurs $46^a$ qrup tələbəsi İlahə Çərkəzli və II MPF-nin I kurs $256^a$ qrup tələbəsi Fidan Dostuyeva II və I MPF-nin I kurs, $45^b$ qrup tələbəsi Nəzrin Musayeva isə III yerə layiq ğörüldülər.*

Konfransın yüksək səviyyədə təşkilinə ğörə I MPF üzrə TEC-in sədri Ümid Rüstəmliyə tədbir iştirakçıları adından təşəkkürümüzü bildiririk.

**L.SÜLEYMANOVA,**
*"Tibbi biologiya və genetika" kafedrası üzrə TEC-in sədri*

**◆ Tibbi-profilaktika və tibbi-biologiya fakültəsi Tələbə Elmi Cəmiyyətinin 39-cu konfransı keçirilib. Konfrans öz işini 3 bölmədə davam etdirib.**



Gigiyena bölməsində 7 məruzə dinlənilib. Münsiflər heyətində 2 professor, 3 dosent iştirak edib. Daha çox bal toplayan məruzəçi tələbələrdən Əzizə Quluzadə, Hacı Mustafazadə, Fərdi Dadaşov, Mehriban İsrafilova, Vüqar Əlizadə və Ülviyyə Abdullayeva diploma layiq görülüblər.





Mikrobiologiya, immuniogiya və epidemiologiya bölməsi üzrə 5 məruzə dinlənilib. Məruzəçi tələbələrdən Aytən Məmmədova, Fariz Mahmudlu və Həmzalı Nərminə diploma təltif olunublar.

Bu bölmənin münsiflər heyətində AMEA-nın müxbir üzvü, professor Z.Qarayev, ə.e.x., professor İ.Ağayev, digər 3 professor və 1 dosent fəaliyyət göstərib.

Tibbi-biologiya bölməsi üzrə isə 4 məruzə dinlənilib. Məruzəçilərdən Lalə Şabanova, V.Qurbanov və A.İsmayılova diploma layiq görülüblər.

Münsiflər heyətini 3 professor, 1 dosent təmsil edib.

Konfransın açılışını və bağlanışını fakültə dekanı A.Məmmədov aparıb. Konfransın bütün bölmələrində tələbələr sədr kimi fəaliyyət göstəriblər. Yekunda müzakirələr zamanı konfransda dinlənilmiş mövzuların elmi aktuallığı, təcrübi əhəmiyyəti, tələbələrin sərbəst məruzə etmələri, müasir illüstrasiya təminatı və diskussiyalarda müəllim və tələbələrin aktiv iştirakı qeyd edilib.

Hər üç bölmədə digər məruzəçilərə sertifikatlar təqdim edilib.

**Q.ABDULLAYEV**

**◆ II müalicə-profilaktika fakültəsinin Tələbə Elmi Cəmiyyətinin konfransı keçirildi.**



TEC-ə olan marağı və elmi işlərin sayını nəzərə alaraq fakültə elmi konfransı "Terapiya bölməsi" və "Terapiya və nəzəri biliklər bölməsi" olmaqla 2 ayrı tədbir şəklində təşkil edildi. Terapiya bölməsi üzrə fakültə elmi konfransı psixiatriya kafedrasında keçirildi. Konfransı fakültənin dekanı, dosent Taryel İsmayılov açdı. Konfransda 10 elmi iş dinlənildi. Hər elmi iş münsiflər heyəti tərəfindən qiymətləndirildi. Münsiflərin qiymətləndirilməsinə əsasən I yerə II MPF-nin $339^b$ qrup tələbəsi Sadəddinli Nuran, I MPF-nin $141^a$ qrup tələbələri İsmayılova Nərmin və Şirinova Nigar layiq görüldülər. Onların hazırladıqları "Energetik içkilərin insan psixologiyasına təsiri" adlı elmi məruzə hamı tərəfindən maraqla dinlənildi. İkinci yerə $341^b$ qrup tələbəsi Babayeva Dinarə, üçüncü yerə $150^a$ qrup tələbəsi Mustafayeva Şəbnəm layiq görüldü. Dərəcəyə girən tələbələr diplom və konfransın təşkilinə dəstək göstərən **Elit Akademiya kursu** tərəfindən müxtəlif endirim və kitablarla təltif olundular.



Terapiya və nəzəri biliklər bölməsi üzrə elmi konfransı ailə təbabəti kafedrasında keçirildi. Bu konfransı da fakültə dekanı Taryel İsmayılov açdı. Konfransda 10 elmi iş dinlənildikdən sonra münsiflərin qiymətləndirməsinə əsasən dərəcəyə girən tələbələr müəyyənləşdi. Birinci yerə II MPF-nin $274^a$ qrup tələbəsi Mahmudov Əli layiq görüldü. İkinci və üçüncü yerləri müvafiq olaraq II MPF-nin $350^c$ qrup tələbəsi Hüseynova Leyla və $305^a$ qrup tələbəsi Hacızadə Ülvi tutdu. Hər üç tələbə diplom və konfransın təşkilinə dəstək göstərən **Edulandiya kursu** tərəfindən müxtəlif endirim və kitablarla təltif olundu.





Hər iki konfransda iştirak edən bütün tələbələr sertifikatla mükafatlandırıldı.

**Ramil HÜSEYNZADƏ**
*Fotolar Cənnətalı Çingizindir*

# Kafedranın kitab rəfi

**Sürətlə inkişaf edən farmakologiya elminin bu günkü tələblər səviyyəsində tədrisi, son elmi məlumatları özündə əks etdirən yeni dərsliklər, dərs vəsaitləri və metodik işləmələrin yazılması və mövcud tədris vəsaitlərinin yeniləşdirilməsini tələb edir. Qəzetimizdə təqdim edilən dərslik və dərs vəsaitləri də məhz bu məqsədlərə xidmət edir.**

*M.Qəniyev "Farmakologiya" Elmi redaktorlar: professor V.Əsmətov, dosent G.Hüseynova; Rəyçilər: ə.e.x., professor D.Hüseynov, ə.e.x., professor S.Əliyev, professor Z.İsmayılova, professor R. Axundov, dosent F. İslamzadə. (Dərslik, I hissə) Bakı – "Təbib" nəşriyyatı, 2013.-500 səh.*




Dərsliyin geniş oxucu auditoriyasına təqdim olunan hazırki IX nəşrinə farmakologiya elmi, onun məqsəd və vəzifələri, inkişaf tarixi, farmakologiyanın əsas bölmələri, yeni dərman maddələrinin alınması, öyrənilməsi, tibbi praktikaya tətbiqi, dərmanların təsnifat prinsipi, ümumi və xüsusi farmakologiyadan sinir tənziminə təsir göstərən dərman maddələri bölməsi daxil edilmişdir. Bu nəşr stereotip nəşr olduğuna görə, dərman maddələrinin təsnifat və bölgü prinsipləri, təsir mexanizmi və farmakologiyasını xarakterizə edən digər əsas məsələlərdə dəyişikliklər edilməmişdir. Yalnız dərslikdə verilən orfoqrafik, dil, üslub xətaları düzəldilmiş, mövzu ardıcıllığı, farmakoloji terminlər və dərmanların dozalanma və təyinat prinsiplərində əvəlki nəşrlərdə buraxılmış bəzi nöqsanlar aradan qaldırılmışdır. Əvvəlki nəşrlərdə oldiğu kimi bu nəşrdə də keçilən mövzuların effektivliyinin artırılması məqsədilə dərslikdə illustriativ materiallara (şəkil, cədvəl) geniş yer verilmişdir. Bu məqsədlə farmakologiyaya aid müxtəlif dərslik, dərs vəsaiti və elmi ədəbiyyatlardan istifadə olunmuşdur. Bütün hallarda müəlliflik hüququna ciddi əməl olunmuş və istifadə olunan illustriativ materialların mənbələri dəqiqliklə göstərilmişdir. Əvvəlki nəşrlərdə oldiğu kimi bu dərslikdə də beynəlxalq adlar terminologiyasından istifadə edilmişdir.

*M.Qəniyev "Farmakologiya" Elmi redaktorlar: professor V. Əsmətov, dosent G. Hüseynova; Rəyçilər: ə.e.x., professor D.Hüseynov, ə.e.x., professor S. Əliyev, professor Z. İsmayılova, professor R. Axundov, dosent F. İslamzadə. (Dərslik, II hissə) Bakı – "Təbib" nəşriyyatı, 2014.-837 səh.*




Kitabın I hissəsində olduğu kimi II hissəsində də dərman preparatlarının təsnifat və bölgü prinsiplərində, əsasən, beynəlxalq adlar terminologiyasından istifadə edilmişdir. Bu hissədə də müəllifin qarşıya qoyduğu əsas vəzifə tələbələrdə farmakoloji təfəkkür tərzinin formalaşdırılması, bu sahədə bilik və elmi vərdişlərin onlara daha asan yolla çatdırılması olmuşdur. Müasir dərman maddələrinin farmokokinetkasına və farmokodinamikasına düzgün, elmi əsaslarla yanaşma, eləcə də farmakologiyanın ən son elmi uğurlarının tədris prosesinə gətirilməsi də qarşıya qoyulan əsas məsələlərdəndir.

Dərsliyə bilavasitə farmakologiya kursunun əsasları daxil edilmişdir. Bununla yanaşı, müasir farmakologiyanın ayrılmaz tərkib hissəsi olduğundan bu elmin zəruri və vacib bilinən sahələrinə də kitabda müvafiq bölmə və bəhslər üzrə geniş yer verilmişdir.

Nəfis tərtibatda təqdim olunan hər iki dərsliyin dili sadə, aydın və oxunaqlıdır.

Dərsliklər ATU- nun tələbələri, rezidentura və magistratura pilləsində təhsil alan gənc həkim və əczaçılar üçün nəzərdə tutulmuşdur.

*M. Qəniyev, V. Əsmətov. "Farmakologiya" Elmi redaktor: dosent Q. Qurbanov; Rəyçilər: ə.e.x., professor Q. Qarayev, professor Z. Qarayev, professor M. Vəliyeva, dosent A. Əliyev, A. Bağırov; (Dərslik) Bakı – "Təbib" nəşriyyatı, 2015.-575 səh.*




Müasir tibbi təhsilin əsas tələblərindən biri tədris prosesinin fakültə prinsipi ilə aparılmasıdır. Bu bir tərəfdən ixtisasyönümlü farmakoloji təfəkkür tərzinin formalaşmasına, digər tərəfdən, gələcəkdə konkret klinik fənlərin ardıcıllıqla tədrisi prosesində farmakoterapiyanın daha da yaxşı mənimsənilməsinə və effektivliyinin yüksəldilməsinə təminat verir. Stomatologiya fakültəsinin tələbələri üçün nəzərdə tutulan bu dərslik məhz həmin məqsədlərə xidmət edir və bu prinsip əsasında hazırlanmışdır.

Dərslikdə xüsusən, stomatologiya praktikasında çox istifadə olunan dərman qrupları və fərdi preparatların farmakokinetika və farmokodinamikasına geniş yer verilmiş, istifadə olunduqları konkret stomatoloji xəstəliklərin farmakoloji korreksiya üsulları hərtərəfli təhlil olunmuşdur. Dərsliyə bilavasitə stomatologiya fakültəsində farmakologiyanın tədrisi kursunun əsasları daxil edilmişdir.

*M.Qəniyev, V.Əsmətov, X.Aydın qızı, K.Yaqubov; "Qan sisteminə təsir göstərən dərman maddələrinin farmakologiyası" Elmi redaktor: dosent G.Hüseynova; Rəyçilər: M. Vəliyeva, professor R.Axundov, dosent Q. Qurbanov, dosent F.Hüseynova; (Dərs vəsaiti) Bakı – "Təbib" nəşriyyatı, 2015.- 203səh.*




Müəlliflərin təqdim etdiyi bu dərs vəsaiti qan sisteminə təsir göstərən dərman maddələrinin farmakologiyası haqqında elmin ən son nailiyyətlərini daxil etmiş, proqram üzrə tədris olunan bütün mövzuların müasir tələblərə cavab verən geniş, əhatəli və izahlı təhlilini verməyə çalışmışlar.

Tədris prosesində tələbələrin qan sisteminə təsir göstərən dərman maddələri bölməsi üzrə qazandıqları nəzəri biliklərin qiymətləndirilməsi, eləcə də intellektual farmakoloji hazırlıqların yoxlanılması üçün dərs vəsaitinə test sualları da daxil edilmişdir.

Dərs vəsaiti farmakologiya fənninin tədrisi proqramına uyğun yazılmış, müalicə işi və tibbi- profilaktika fakültələrinin tələbələri üçün nəzərdə tutulmuşdur.

*M.Qəniyev, V. Əsmətov, S. Babayeva; "Hormon sisteminə təsir göstərən dərman maddələrinin farmakologiyası" Elmi redaktor: dosent Q. Qurbanov; Rəyçilər: ə.e.x., professor Q. Qarayev, professor F. İslamzadə, dosent A.Əliyev, dosent X. Mirzəyev; (Dərs vəsaiti) Bakı – "Təbib" nəşriyyatı, 2015.- 218 səh.*




Dərs vəsaiti bu fənnin tədrisinin əsas bölmələrindən biri olan hormon preparatlarının farmakologiyasına həsr edilmişdir.

Farmakologiyanın bu sahəsini dərindən bilməyən praktik həkim apardığı hormonoterapiyanın uğurlu nəticələrinə zəmanət verə bilməz. Odur ki, gələcək həkim və əczaçılara farmakologiya fənninin bu bölməsi müasir tələblər səviyyəsində və elmin son nailiyyətlərinə istinadən yazılan dərs vəsaitlərindən istifadə olunmaqla tədris olunmalıdır. Bu səbəbdən dərs vəsaitinə hormon preparatları haqqında farmakologiyanın ən son nailiyyətləri daxil edilmiş, proqram üzrə tədris olunan bütün mövzuların müasir tələblərə cavab verən geniş, əhatəli və izahlı təhlili verilmişdir.

Tələbələrin hormon preparatları bölməsi üzrə qazandıqları biliklərin qiymətləndirilməsi, eləcə də intellektual farmakoloji hazırlıqların yoxlanılması üçün dərs vəsaitinə test sualları da daxil edilmişdir.

Dərs vəsaiti farmakologiya fənninin tədrisi proqramına uyğun yazılmış, müalicə işi və tibbi- profilaktika fakültələrinin tələbələri üçün nəzərdə tutulmuşdur.

*"Farmakologiyadan test sualları" (Dərs vəsaiti) Bakı- "Təbib" nəşriyyatı, 2011, 190səh. professor Musa Qəniyevin redaktorluğu ilə farmakologiya kafedrasının əməkdaşları tərəfindən hazırlanmışdır.*




Test tapşırıqları farmakologiya fənninin bütün bölmələrini əhatə edir. Sualların seçimi, tərtibatı və müasirliyi bütün hallarda fənnin məqsəd və vəzifələrinin açılmasına xidmət edir. Onların düzgün cavablandırılması tələbələrdən təkcə dərin nəzəri farmakoloji biliklərə yiyələnmək deyil, həm də onlarda müstəqil farmakoloji təfəkkür tərzinin formalaşmasını tələb edir.

Dərs vəsaitinə ümumi reseptura üzrə 20, ümumi farmakologiya üzrə 58, xüsusi farmakologiya üzrə 662, cəmi 740 test sualları daxil edilmişdir.




*M.Qəniyev, A. Mirzəyeva; "Farmakologiya" (ingilis dilində) Elmi redaktorlar: professor G. Hüseynova, S. Babayeva; Rəyçilər: ə.e.x., professor S. Əliyev, professor V. Əsmətov, dosent N. Mikayılzadə, professor F. İslamzadə; (Dərslik, I hissə) Bakı – "İSBN" nəşriyyatı, 2010.-384 səh.*

Dərslik Azərbaycan Tibb Universitetində farmakologiya fənninin proqramı əsasında yazılmış və universitetdə təhsil alan xarici tələbələr üçün nəzərdə tutulmuşdur.Kitabdan həmçinin fənnin tədrisi ilə məşğul olan professor- müəllim heyəti, bu elm sahəsilə məşğul olan tədqiqatçılar, həkimlər və əczaçılar da istifadə edə bilər.

*M.Qəniyev, A.Mirzəyeva; "Farmakologiyaya dair atlas" (ingiliscə) Elmi redaktor: A.Mirzəyeva; Rəyçilər: ə.e.x., professor S.Əliyev, professor V.Əsmətov; Bakı – "İSBN" nəşriyyatı, 2011.-238 səh.*




Atlas Azərbaycan Tibb Universitetində farmakologiya fənninin proqramı əsasında yazılmış və universitetdə təhsil alan xarici tələbələr üçün nəzərdə tutulmuşdur. Kitabdan həmçinin fənnin tədrisi ilə məşğul olan professor-müəllim heyəti, bu elm sahəsilə məşğul olan tədqiqatçılar, həkimlər və əczaçılar da istifadə edə bilər.

**Qeyd edək ki, kafedranın müdiri, professor Musa Qəniyevin təşəbbüsü ilə kafedranın tərkibində mini kitabxana təşkil olunub. Burada təkcə farmakologiya elmi deyil, tibbin müxtəlif sahələrindən bəhs edən 2 minə yaxın dərslik və dərs vəsaitləri toplanıb. Gün ərzində iyirmidən artıq tələbənin istifadə etdiyi bu kitabxanada eliektron katoloqu da yaradılmışdır. Bu da kitabxanaya müraciət edən oxuculara istədiyi ədəbiyyatın axtarılması işini asanlaşdırır.**

**Hazırladı: M.ƏLƏKBƏRLİ**

# "Mobil gələcək, kitabxanalar və resurslar"

**◆ Azərbaycan Tibb Universitetinin Əsaslı Kitabxanası 2003-cü ildən fəaliyyət göstərən Azərbaycan Kitabxana Konsorsiumunun (AzKiK) yaradıcılarındandır. Konsorsiumun fəaliyyəti dövründə Əsaslı Kitabxana bütün proqram və layihələrdə yaxından iştirak etmişdir. Bu sahədə Azərbaycan Tibb Universitetinin rəhbərliyi də layihələrin həyata keçirilməsində maliyyə dəstəyini əsirgəməmişdir. AzKiK Türkiyənin Anadolu Universitet Kitabxanaları Konsorsiumu (ANKOS) ilə yaxından əməkdaşlıq edir. Konsorsium vaxtaşırı beynəlxalq səviyyəli konfranslar təşkil edərək, kitabxana informasiya sahəsində yeni layihələrin təqdimatını təşkil edir.**



ANKOS 2000-ci ildə, 92 beynəlxalq məlumat bazaları ilə 2.005 müqavilələri olan və 171 universitet və elmi - tədqiqat institutlarının üzv olması ilə yaradılmışdır . ANKOS 2001-ci ildən kitabxanaçılar, elmi-tədqiqatçılar, tələbə və müəllimlər, arxiv işçiləri üçün beynəlxalq konfranslar keçirir. Türkiyə konsorsiumunun keçirdiyi konfranslarda Amerika Birləşmiş Ştatlarından, Avropadan, Cənubi Afrikadan, Orta Şərq və Türk dilli ölkələrdən 1000-dən artıq nümayəndə iştirak etmişdir.

ANKOS-un növbəti beynəlxalq konfransı 9-11 aprel 2015-ci il tarixində Türkiyənin Antalya şəhərində, Karvansaray Konfrans mərkəzində keçirildi. Əsasən, "Mobil gələcək, kitabxanalar və resurslar"-elektron resursların işlədilməsi, mobil kitabxana xidmətləri və gələcək akademik kitabxanalar kimi mövzular proqrama daxil edilmişdir. Azərbaycanın bir çox Ali Təhsil Kitabxanalarının qatıldığı tədbirdə Əsaslı Kitabxananın direktoru kimi mən də iştirak etdim. Geniş proqramı olan bu tədbirdə müasir dövrdə kitabxanaların tam avtomatlaşdırılması və elektron resurs bazalarının işi və əhəmiyyəti barədə geniş fikir mübadilələri aparıldı.

Azərbaycan Tibb Unibersitetinin Əsaslı Kitabxanasında virtual olaraq oxucuların da istifadə etdiyi bəzi nəşriyyatlar daxil olmaqla, Elsevier, EBSCO, Clinical Key, Wiley, Tomson Reuters, Springer, Bio Med Central, JSTORP, ProQuest, Oxford Universitet nəşriyyatları kimi beynəlxalq nəşriyyatların nümayəndələrinin keçirdikləri təqdimatlar və OCLC, EndNote, HiperLink kimi elmi işçiləri maarifləndirmək istiqamətində bu sistemlərin rolundan bəhs olunan təqdimatlar dinlənildi.

Konfransda informasiya xidmətlərində, mobil əməliyyatların inkişafı və açıq resurslar (Open Access) istiqamətində təşəbbüskarlıq kimi mövzular və ANKOS-un işçi qrupun üzvlərinin fəaliyyəti dinlənildi. Konfransın bölmə iclaslarında səmərəli müzakirələr aparıldı və bundan sonra da əməkdaşlıq üçün yeni layihələrdə birgə iştirak etmək nəzərdə tutuldu (kitabxanalararası abonement, açıq resurslardan–qaynaqlardan birgə istifadə və s.).

Konfransın sonunda 15 ilini qeyd edən ANKOS prezidenti hörmətli Sami Çukadar təşkilatçılar və öz adından tədbirdə iştirak edən bütün qonaqlara təşəkkürünü bildirdi.

**Z.EMINOVA,**
*Əsaslı Kitabxananın direktoru, tarix. e. ü. f. d*

# BİZ SİZİNLƏ FƏXR EDİRİK!

**Aprel ayının 13-16 tarixlərində Azərbaycan Texniki Universitetının idman zalında həndbol idman növü üzrə kişilər arasında keçirilən XII Respublika Universiadasında Azərbaycan Tibb Universitetinin komandası iştirak etmişdir.**



Azərbaycan Tibb Universitetinin komandası bütün Universitetlərin komandalarını məğlubiyyətə uğradaraq finala vəsiqə qazandı. Ötən ilin çempionu-Milli Aviasiya Akademiyasının komandasına gərgin mübarizədə 21 : 11 hesabı ilə qalib gələrək I yerə layıq görüldü.



Komandanın üzvlərini və məşqçi, professor Kamal Kəbirlinskini təbrik edirik!

Bunlardan əlavə, aprel ayının 20–23 tarixlərində Azərbaycan Tibb Universitetinin idman zalında voleybol idman növü üzrə qızlar arasında keçirilən XII Respublika Universiadasında Azərbaycan Tibb Universitetinin komandası 3 fəxri yer tutmuşdur.

Komandanın üzvlərini və məşqçi Yana Kuznetsovanı da təbrik edirik!

**SEVINC İSAYEVA,**
*İdman klubunun sədri*

# Azərbaycanda immunoprofilaktika pasportlarının yeni sistemi istifadəyə veriləcək

**Valideynlər uşaqlara peyvəndin vurulması barədə "Elektron sağlamlıq kartı"nda əks olunan məlumatları asanlıqla əldə edə biləcək.**



Süd məhsullarının tərkibində bol miqdarda kalbu fikir aprelin 23-də Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) immunoprofilaktika pasportlarının yeni sisteminin istifadəsinə dair keçirilən təlimdə səslənib.

Vaksinlər və İmmunlaşdırma üzrə Qlobal Alyansın (VİQA) "Azərbaycanda səhiyyə sisteminin gücləndirilməsi" layihəsi çərçivəsində keçirilən təlimdə bildirilib ki, immunoprofilaktika pasportlarının yeni sisteminin istifadəyə verilməsində məqsəd uşaqlara vurulan peyvəndlərlə bağlı məlumatların mərkəzləşdirilmiş formada daxil edilməsidir.

Qeyd olunub ki, immunoprofilaktika pasportlarının yeni sistemi valideynlərə uşaqlara peyvəndin vurulması barədə "Elektron sağlamlıq kartı"nda əks olunan məlumatları asanlıqla əldə etməyə imkan yaradacaq. Hazırlanmış "İmmunizasiya pasportu" kartları da valideynlər üçün məlumat kitabçası rolunu oynayacaq.

Müzakirələrdə uşaq poliklinikalarında peyvəndlə bağlı məlumatın daxil edilməsi zamanı rast gəlinən çətinliklərdən söhbət açıldı, Problemin həlli məqsədilə təklif və tövsiyələr dinlənildi.

Təlimdə ilkin səhiyyə müəssisələrinin, statistika xidmətlərinin kompyuter operatorları, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin nümayəndələri iştirak ediblər.

# Bakıda "Uroloji xəstəliklərin müalicəsində müasir texnologiyaların tətbiqi" mövzusunda beynəlxalq konqres keçiriləcək

Mayın 4-5-də Bakıda "Uroloji xəstəliklərin müalicəsində müasir texnologiyaların tətbiqi" mövzusunda Azərbaycan uroloqlarının konqresi keçiriləcək.



Azərbaycan Uroloqlar Assosiasiyası, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu və Milli Onkologiya Mərkəzinin təşkilatı dəstəyi ilə reallaşacaq konqresdə Almaniya, Avstriya, Gürcüstan, Rusiya, Qazaxıstan və Türkiyənin uroloqları iştirak edəcək.

Konqresdə Avropa Uroloqlar Assosiasiyasının urotexnoloji bölümünün sədri, professor Yens Rassvailer urologiyada minimal invaziv əməliyyatların tətbiqinə dair məruzə ilə çıxış edəcək. Eyni zamanda, urologiyanın ən aktual problemlərinə dair məruzələr dinləniləcək və müzakirələr aparılacaq. Bundan başqa, konqres çərçivəsində qabaqcıl uroloqlar tərəfindən "ustad dərsi" (canlı cərrahiyyə) keçirilməsi nəzərə tutulur.

## Etibarsız sayılır

Əliyeva Lalə Elxan qızına 2010-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən oftalmoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $162^{a}$ qrup tələbəsi Əlizadə Novruz Kamil oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin IV kurs,795b qrup tələbəsi Nabaz Hasan Alinin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Rəhimova Yeganə Sabir qızına 1988-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $705^{b}$ qrup tələbəsi Həbibov Natiq Ədalət oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, $763^{a}$ qrup tələbəsi Nəzirli Qoşqar Azər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əliyeva Mehriban Oqtay qızına 1994-cü ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qasımova Aynur Davud qızına 1999-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən epidemioloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ağayeva Təranə Məmmədhəsən qızına 1996-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, $370^{c}$ qrup tələbəsi Hiba Nuaiminin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 226